# AZƏRBAYCANÇILIQ MƏFKURƏSİNİN YÜKSƏLİŞ İLLƏRİ

**1969-cu ildən başlanan epoxa özündə dövlətçiliyimizin inkişaf, yüksəliş və müstəqillik mərhələlərini birləşdirir. Tarixdə sadəcə yaşadığı dövrə deyil, onilliklərə möhürünü vurmuş, prosesləri istiqamətləndirməyi bacarmış insanların yeri hər zaman müstəsnadır. Tanrının xalqımıza bəxş etdiyi böyük siyasət və dövlət adamı, ulu öndər Heydər Əliyevin adı, imzası tariximizdə müstəsna yerə sahibdir. Ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etməyə başlaması respublikamız və xalqımız üçün tarixi bir şans idi və zamanın gərdişi, yaşanan hadisələr, tarixi sınaq anları bunu dəfələrlə təsdiq edib. Maddi-mədəni zənginliyə sahib olan Azərbaycan həmin vaxta qədər keçmiş ittifaqda sıradan bir respublika idi, bəzi sosial-iqtisadi göstəricilərə görə isə xeyli geri qalmışdı. Zənginliyi lazımi səviyyədə ortaya çıxarmaq, reallıqları düzgün qiymətləndirmək zəruri idi. O cümlədən mədəni mirasımız, ədəbiyyat və incəsənətimiz özünün gerçək himayədarını gözləyirdi.**

Xalqımız müasir dövrdə tarixi dövlətçilik ənənələrini Heydər Əliyev epoxasında təkmilləşdirərək sistem halına salmış, millət kimi mövcudluğunu, dövlət qurmaq haqqını və özünü idarə etmək bacarığını yüksək səviyyədə nümayiş etdirmişdir. Ona görə də həyatının mənasını xalqa və dövlətə xidmətdə görən ulu öndər bu müqəddəs amal uğrunda ən çətin maneələrə, problemlərə mərdliklə sinə gərən millət fədaisi kimi daim böyük ehtiramla xatırlanır. Keçmiş SSRİ-nin Dövlət Plan Komitəsinin sədri işləmiş, ittifaq məkanının bütün iqtisadi düymələrini az qala ovcunun içi kimi bilən, həmin proseslərin nəinki iştirakçısı, həm də təkanvericisi olan Nikolay Baybakovun "Azərbaycanı Heydər Əliyev qədər sevən ikinci bir insan yoxdur" fikri bu sevginin bariz nümunəsidir… Azərbaycanın dərin iqtisadi və mənəvi böhran keçirdiyi 1969-cu ildə ölkəyə rəhbərliyə başlayan Heydər Əliyev işıqlı gələcəyə doğru aparan yolun əsasını qoymuşdur.

1969-1982-ci illərdə həyatın bütün sahələrində baş vermiş köklü dəyişikliklər miqyasına görə Azərbaycanın şanlı quruculuq və milli intibah salnaməsinin ən dolğun və şərəfli səhifələrini təşkil edir. 1969-cu ildə Azərbaycanda birinci dəfə hakimiyyətə gələn Heydər Əliyev ölkəyə rəhbərlik etdiyi 13 il ərzində milli maraqları nəzərə almaqla atdığı strateji addımlar və uğurla reallaşdırdığı irimiqyaslı tədbirlər sayəsində respublika iqtisadiyyatının və həyatın bütün sahələrini sürətli inkişaf yoluna çıxıb. Heydər Əliyev həm sovet, həm də müstəqillik illərində Azərbaycana rəhbərlik etdiyi hər iki dövrdə xalqımız və dövlətçiliyimiz üçün milli maraqlara xidmət edən misilsiz və taleyüklü işlər görüb. Təbii ki, bütün bunlar müxtəlif maneələrə, təhdidlərə, təzyiqlərə və hətta şəxsi həyatına olan təhlükələrə baxmayaraq, Ulu Öndərin vətənpərvərlik, Azərbaycan sevgisi, milli maraqlar, azərbaycançılıq, milli adət-ənənələrə bağlılıq və yeniliklərə həssaslıq kimi dəyərləri üstün tutması sayəsində mümkün olub. Bu isə bir daha Heydər Əliyev dühasının bütövlüyündən, Azərbaycan dövlətinin memarı kimi onun yüksək səviyyəli konstruktivliyindən, qlobal düşüncəyə sahibliyindən, misilsiz diplomatik məharətindən və professional idarəçilik keyfiyyətlərindən xəbər verir. 1969-cu il iyul ayının 14-də ulu öndər Heydər Əliyevin respublikaya rəhbərliyə gəlişi ilə əlaqədar Gəncənin də həyatında yeni mərhələ başladı. Başqa sözlə, ölkəmizin tarixində Heydər Əliyev epopeyası yarandı.

Elə ilk günlərdən respublika rəhbərinin Gəncəyə xüsusi qayğı və diqqəti açıq-aydın duyulurdu. 1970-ci ilin aprel ayında Heydər Əliyev Gəncəyə gəldi. Şəhərin həyatı ilə ətraflı tanış oldu, müəssisələri gəzdi, ziyalılarla görüşdü. Durğunluğun səbəblərini araşdırdı. Yüksəlişin yollarını müəyyən etdi. Onun şəhər fəallarının yığıncağındakı dərin məzmunlu çıxışı indi də xatırlanır. Bu unudulmaz səfərdən sonra qədim diyarın yeni həyatı, əsl yüksəlişi, tərəqqi dövrü başlandı. Ümumən respublikadakı kimi, Gəncə şəhərində neçə-neçə xoş niyyətli işlərin təməli qoyuldu. Sənaye obyektləri tikildi, körpülər, bağlar, parklar salındı, elm, təhsil ocaqları istifadəyə verildi. Çini qablar zavodu, Qənnadı fabriki, Taxıl məhsulları, xalça, ət və süd kombinatları, Əlvan metalların emalı zavodu inşa edildi. "Gəncə" mehmanxanası, təyyarə limanı, Yeni Gəncə və Gülüstan yaşayış sahələri, Avtomobilçilər qəsəbəsi və neçə-neçə digər xeyirxah işlər o illərin yadigarıdır. Bir sözlə, Gəncədə sağlam mənəvi mühit yaradıldı. Elm, maarif, mədəniyyət aləminə yeni nəfəs gətirildi. Milli-mənəvi dəyərlərə xüsusi üstünlük verilməyə başlandı. Yeni Gəncə yaşayış massivi salınmaqla, Gəncə və Kəpəz rayonları yaradılmaqla qədim şəhərin tarixi adı qaytarıldı. Dahi şəxsiyyət deyirdi: "...o illərdə bu işləri görərkən mən məhz Azərbaycanın gələcəyini, bugünkü müstəqilliyini düşünürdüm. O işləri görərkən mən əmin idim ki, onlar Azərbaycanın sərbəst, müstəqil yaşaması üçün əsas yaradır". Heydər Əliyevin Azərbaycanda ikinci dəfə hakimiyyətə gəlməsi çox ağır, böhranlı və keşməkeşli dövrə təsadüf edib. Bununla da Heydər Əliyev xalqımızın qurtuluşu və müstəqil Azərbaycan dövlətinin xilaskarı kimi taleyüklü və olduqca çətin bir missiyanı öz üzərinə götürdü. Bu missiyanın öhdəsindən böyük məharətlə və layiqincə gələ bilməsi isə Heydər Əliyevin xalqını və onun müstəqilliyini canından da çox sevməsindən, xalqına və dövlətinə qırılmaz tellərlə bağlı olmasından qaynaqlanırdı. Bunun mahiyyətini daha dolğun ifadə etmək üçün 1993-cü il iyunun 15-də parlamentin sədri seçilən Heydər Əliyev deyib: "...Azərbaycan xalqının tarixi nailiyyəti olan Azərbaycan Respublikasının dövlət müstəqilliyini qorumağı, möhkəmləndirməyi, inkişaf etdirməyi özüm üçün ən əsas vəzifələrdən biri hesab edirəm... Heç kəsin şübhəsi olmasın ki, ömrümün bundan sonrakı hissəsini yalnız və yalnız Azərbaycan Respublikasının müstəqil dövlət kimi inkişaf etməsinə həsr edəcəyəm".

Dövlətçiliyimizi məhv olmaq təhlükəsindən qorumaq üçün yeganə ümid yerimiz olan Heydər Əliyev yüksək fədakarlıq nümunəsi kimi ömrünün qalan hissəsini yalnız və yalnız müstəqil Azərbaycanın möhkəmlənməsinə və inkişaf etməsinə həsr etdi. Ulu Öndər öz doğma xalqının xilaskarı oldu. Heydər Əliyevin məqsədyönlü daxili və xarici siyasəti sayəsində Azərbaycan tənəzzül və xaosdan qurtulub, hərtərəfli tərəqqi və davamlı inkişaf yoluna qədəm qoydu. Xüsusilə qeyd etmək lazımdır ki, iqtisadi və siyasi böhran, müharibə şəraitində olan ölkə imicinin Azərbaycana xarici sərmayələrin qoyulmasını qeyri-mümkün etdiyi bir şəraitdə Heydər Əliyevin siyasi lider kimi yüksək beynəlxalq nüfuzu və diplomatik istedadı sayəsində "Əsrin müqaviləsi"nin imzalanması ilə yeni neft strategiyasının reallaşdırılmasına başlanıldı. Bu fakt Azərbaycanın böhrandan çıxması və dövlət müstəqilliyimizin möhkəmləndirilməsi baxımından müstəsna əhəmiyyətə malik olan tarixi hadisə və nailiyyət hesab olunur. Heydər Əliyevin müəllifi olduğu neft strategiyasının ölkəmiz üçün strateji önəmini Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin aşağıdakı fikirləri çox dəqiq ifadə edir: "İndi təsəvvür etmək çətindir ki, əgər 1994-cü ildə "Əsrin kontraktı" imzalanmasaydı, biz hansı vəziyyətlə üzləşə bilərdik... Biz heç kimdən asılı deyilik, öz taleyimiz öz əlimizdədir və müstəqil siyasət aparmaq imkanlarımız, ilk növbədə, iqtisadi imkanlarımızdan qaynaqlanır. Bu imkanları da bizə "Əsrin kontraktı" yaratdı". Eyni zamanda bu gün fəxrlə deyirik ki, 1995-ci ildə qəbul edilən Azərbaycan Respublikasının Konstitusiyasının müəllifi məhz Heydər Əliyevdir. Şübhəsiz ki, yüksək professionallıqla hazırlanmış ali qanunumuz Azərbaycanın demokratik, hüquqi və dünyəvi dövlət kimi inkişafına Ulu Öndər tərəfindən verilmiş əvəzolunmaz töhfələrdən biri hesab edilir. Qədirbilən xalqımız müstəqilliyimizin qorunub saxlanılmasına, müasir dövlətçiliyimizin əsaslarının formalaşdırılmasına, Azərbaycanın bir dövlət olaraq müasir beynəlxalq münasibətlər sistemində layiqli yer tutmasına görə əbədi olaraq, Heydər Əliyevə minnətdardır. Bəli, öz tarixi missiyası ilə ulu öndər müasir Azərbaycan dövlətini yaratdı, xalqımızı yenidən müstəqilliyini itirməkdən, əsarət altında yaşamaqdan xilas etdi. Azərbaycan xalqı qarşısında misilsiz xidmətləri olan ümummilli lider Heydər Əliyevin Azərbaycanın çiçəklənməsinə və daha da qüdrətlənməsinə xidmət edən zəngin dövlətçilik irsi, sözün əsl mənasında, xalqın milli sərvətidir.

Bu gün, fəxrlə deyə bilərik ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən ulu öndərin dövlətçilik ənənələri layiqli şəkildə uğurla davam etdirilir, zənginləşdirilir və yeni dövrün tələblərinə uyğun inkişaf etdirilir. Məhz dövlət başçısı cənab İlham Əliyevin fəaliyyəti və nüfuzu nəticəsində bu gün ölkəmiz regional və qlobal məsələlərin həllində fəal aktorlardan birinə çevrilib. Prezident İlham Əliyevin dediyi "Ölkəmizdə müstəqil dövlət təsisatlarının yaradılması, demokratik, hüquqi dövlət quruculuğunun böyük vüsət alması, yeni iqtisadi kursun müəyyənləşdirilməsi ilə bağlı proseslərin müvəffəqiyyətli həlli şəxsən Heydər Əliyevin xidmətidir" sözləri bunun təsdiqidir.

**Zabit XƏLİLOV,**
**"Respublika".**